# TARİXİ ƏDALƏTSİZLİK, YOXSA ƏDALƏTSİZLİK TARİXİ

***Bu gün bütün mütərəqqi bəşəriyyət, dünyanın bütün sülhsevər xalqları yeni XXI əsrin sülh, tərəqqi, xalqlar arasında dostluq və əməkdaşlıq əsri olacağı ümidi və arzusu ilə yaşayır. Xeyirlə şər, əminamanlıq tərəfdarları ilə xalqları qanlı müharibələrə sürükləyən qüvvələr arasında əbədi mübarizə davam edir. Həmişə olduğu kimi yenə də erməni şovinistləri şər qüvvələrin yedəyində gedir, qonşu ölkələrin torpaqları hesabına "Böyük Ermənistan" yaradılması kimi avantürist planların həyata keçirilməsi üçün əlverişli tarixi fürsət yetişdiyini güman edirlər. Hələ ötən əsrin əvvəllərində Birinci dünya müharibəsi illərində Türkiyəni ayrı-ayrı kiçik milli dövlətlərə parçalayıb dağıtmaq məqsədi ilə Atlanta hərbi blokunun təbliğat kampaniyası dövründə uydurulmuş, sonralar isə dəfələrlə beynəlxalq komissiyalar tərəfindən araşdırılsa da təsdiqini tapmamış "1918-ci il erməni genosidi" böhtanını erməni şo-vinistləri hələ də şişirdib təbliğ edirlər, düşmənçiliyi qızışdırırlar. Halbuki, bir çox obyektiv mövqeli tədqiqatçı alimlər bu əsassız uydurmanı təkzibedilməz faktlarla ifşa etmişlər. Sübut olunmuşdur ki, 1918-20-ci illərdə Türkiyədə heç bir xalqa qarşı soyqırım siyasəti aparılmamışdır. Müharibə illərində ölkə daxilində xarici düşmən qüvvələrin təhriki ilə baş verən silahlı qiyamlar, qanlı toqquşmalar, dözülməz həyat şəraiti nəticəsində milli azlıqların, o cümlədən erməni əhalisinin bir hissəsi kütləvi şəkildə xaricə mühacirət etmiş, Afrika, Avropa, Asiya və Amerika qitələrinin müxtəlif ölkələrində məskunlaşmışlar. O dövrdə xarici ölkələrdə erməni icmalarının və ermənilərin sayının sürətlə artması da bu fakti təsdiq edir.***

"Erməni soyqırımı" problemini türk və erməni alimlərinin iştirakı ilə o dövrün arxiv sənədləri əsasında yenidən obyektiv şəkildə araşdırmaq təklifini erməni tərəfi hər dəfə müxtəlif bəhanələrlə rədd edir. Bu isə belə düşünməyə tam əsas verir ki, erməni şovinistlərinə əsl həqiqət deyil, qərəzli məqsədlərlə istifadə üçün gurultulu böhtanlar lazımdır.

"Böyük Ermənistan" planları naminə qonşu dövlətlərin beynəlxalq sərhədlərini tanımaq istəməyən erməni şovinistləri son zamanlar "erməni genosidi" böhtanı ilə yanaşı Azərbaycan Respublikasında guya ermənilərə aid tarix və mədəniyyət abidələrinin qəsdən dağıdılması bəhanəsi ilə mötəbər beynəlxalq təşkilatlara, Avropa Şurasına, ABŞ senatorlarına və konqresmenlərinə çoxsaylı müraciətlər edirlər.

Bu böhtan kampaniyasında xüsusilə canfəşanlıq edən Erməni Memarlıq Tədqiqatları Assosiasiyasının rəhbəri Armen Haqnazaryan hələ 1998-ci ildə məktubla YUNESKO-nun baş katibinə və 03.02.1999-cu il tarixli məktubla isə YUNESKO Baş direktorunun mədəniyyət üzrə müavini Herman Kresto Torala müraciət etmişdir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında Culfa qəbiristanlığının dağıdılması barədə müraciət etmişdir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına qarşı erməni işğalçılarının ərazi iddialarına haqq qazandırmaq, beynəlxalq ictimai fikri çaşdırmaq məqsədləri güdən bu hiyləgər təbliğat kampaniyası 1991-93-cü illərdə Azərbaycan Respublikasının torpaqlarını işğal etmiş Ermənistan işğalçılarının dünya miqyasında apardıqları böhtançı və riyakar təbliğat müharibəsinin davamıdır. İCOMOS kimi nüfuzlu beynəlxalq təşkilatın tribunasından təbliğat ruporu kimi istifadə etməyə çalışan Armen Haqnazaryan bu təşkilata göndərdiyi 14.01.2003-cü il tarixli məktubunda iddia edir ki, Naxçıvanın Azərbaycanın tərkibində qalması tarixi ədalətsizlikdir. "Ermənistanın cənubunda yerləşən Naxçıvan vilayəti Stalinin əmri ilə Azərbaycana birləşdirilmişdir və bu siyasi ədalətsizliyi biz bu günə kimi hiss edirik. Tez bir zamanda bu işğala son qoyulmalıdır". Erməni şovunistinin bu iddialardan sonra Naxçıvanın Culfa rayonunda ermənilərə aid məzar daşlarının - xaçkarların dağıdılması barədə qaldırdığı hayküyün əslində hansı məqsədlər güddüyü hamıya aydın olur.

Armen Haqnazaryanın 1648-ci ildə Culfa qəbristanlığında on minlərlə, XX əsrin əvvəllərində isə guya 6000-dək xaçkar olduğunu heç bir real fakta əsaslanmadan iddia edir. Onun "təkzibedilməz tarixi faktlar" kimi İCOMOS-a təqdim etdiyi fotoşəkillərin demək olar ki, əksəriyyəti saxtadır. Çox guman ki, İCOMOS-a təqdim edilmiş xaçkarların çoxunun fotoşəkilləri Culfa qəbristanlığında deyil, İran və ya Ermənistan ərazilərində erməni qəbristanlıqlarında çəkilmişdir. Culfa qəbristanlığının ümumi görünüşü kimi təqdim olunmuş fotoşəkilin də saxta və fotomantaj olması tam şübhəsizdir. Bu qəbristanlıq SSRİ-nin İranla dövlət sərhəddində yerləşdiyindən sərhəd xidməti işçilərindən savayı heç kəsə oraya daxil olmağa və ya foto şəkil çəkməyə icazə verilmirdi. SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin ciddi nəzarəti altında olan sərhəd zonasında 1960-1970-ci illərdə tikililərin sökülməsi, orta əsrlərə aid qəbristanlıqların dağıdılması və digər tədbirlərin görülməsinə görə azərbaycanlıları ittiham etmək cəhdi mənasız və gülüncdür.

Tarixi faktları saxtalaşdıraraq sensassiya doğura biləcək yalan, iftira, böhtan xarakterli məlumatları YUNESKO-ya göndərmiş A.Haqnazaryan yazır ki, guya Naxçıvan Ermənistanın vilayəti olmuş, Culfa (Cuğa) isə sırf erməni şəhəri olduğundan 1605-ci ildə I Şah Abbas şəhəri dağıtmış, əhalisini isə İrana sürgün etmişdir ki, orada ticarəti inkişaf etdirsinlər.

Halbuki, elmə artıq çoxdan məlumdur ki, Naxçıvan Muxtar Respublikasının ərazisi hələ eramızın əvvəllərində Qafqaz Albaniyası dövlətinin tərkibində olmuşdur. II əsrdə yaşamış Klavdi Ptolomeyin "Coğrafi rəhbərlik" əsərində Qafqaz Albaniyasının yaşayış məntəqəsi olan Naxçıvanın adi "Naksovana" şəklində yazılmışdır. Ərəb xilafətinin ilk alimlərindən Əl-Xvarəzmi (780-847-ci il) "Kitab surət əl-ard", Əbdül Abbas Əl-Fərqani (833-861-ci il) "Kitab əl-səmaviyyə", Əl-Battani (877-910-cu il) "Kitab zic əs-sabi" əsərlərində Azərbaycan ərazisindəki Naxçıvanı "Nəşəva" yaşayış məntəqəsi adlandırmışlar.

Məlum olduğu kimi eramızdan əvvəl 66-cı ildə II Tiqran hakimiyyəti dövründə Ermənistan dövlət müstəqilliyini itirərək Roma imperiyasının vassalına, əyalətinə çevrilmişdi. Bu hadisəni təsdiq edən antik Roma müəllifi Fest "Roma xalqının tarixinin qısa xülasəsi" əsərində yazır: "...İmperator Troyanın hakimiyyəti dövründə Böyük Ermənistan çarının hakimiyyəti əlindən alındı: Ermənistan, Mesopotamiya, Assuriya və Ərəbistan əyalətlərə çevrildilər". Qədim erməni salnaməçisi Movses Xorenatsi eramızın I əsrində baş vermiş hadisələrdən bəhs edərkən Albaniyanın cənub sərhəddinin Araz çayı olduğunu təsdiq edir. 387-ci ildə bağlanmış sülh müqaviləsinə əsasən vassal Ermənistan dövlətinin mövcudluğuna son qoyulmuşdu. Onun bütün ərazisi Roma və Sasani

dövlətləri arasında bölüşdürülmüşdü. Orta əsrlərdə heç bir müstəqil erməni dövləti mövcud olmamışdır. Naxçıvan ərazisinin daxil olduğu Sisakan-Sünik knyazlığı 571-ci ildən Atropatenanın, sonralar isə yenə Albaniyanın vilayəti olmuşdur. Naxçıvan ərazisi VII-IX əsrlərdə Ərəb Xilafətinin, IX-X əsrlərdə Sacilər dövlətinin, X əsrdə Salarilər dövlətinin, XI əsrdən XII əsrin ortalarınadək Naxçıvan şahlığının, XII-XIII əsrlərdə Atabəylər dövlətinin, XIII-XIV əsrlərdə Hülakilər dövlətinin, XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin, XVI-XVII əsrlərdə Səfəvilər dövlətinin, XVIII əsrin II yarısından XIX əsrin I yarısınadək Naxçıvan xanlığının, XIX əsrdən 1917-ci ilədək Rusiya imperiyasının, 1918-20-ci illərdə Azərbaycan Demokratik Respublikasının, 1920-1991-ci illərdə isə Azərbaycan SSRİ-in tərkibində olmuşdur. Bu tarixi həqiqətlərdən qorxan, xalqımızın torpaqlarına göz dikmiş erməni işğalçılarıdır.

Xalqımızın torpaqlarına göz dikmiş erməni şovinistləri bu tarixi həqiqətlərdən yarasalar günəşdən qorxan kimi qorxurlar. Buna görə də Naxçıvanın tarixini istədikləri şəkildə saxtalaşdırırlar.

Qafqaz Albaniyasında qədimdən dini və qəbirüstü simvol rolu oynayan memorial abidələri, stellaları - xaçkarları uzun müddət elmi cəhətdən öyrənmiş qocaman tədqiqatçı alim, Azərbaycan İnşaat Mühəndisləri Universitetinin mərhum kafedra müdiri professor Davud Axundov Culfa xaçkarlarının böyük əksəriyyətinin kompozisiya və simvolika baxımından ermənilərin deyil, rəsmi dövlət dini xristianlıq olmuş Qafqaz Albaniyasına aid olmasını elmi dəlillərlə sübut etmişdir. Əgər erməni xaçkarlarında simvolik və bədii traktavkanın əsasında bütün kompozisiyanın və bəzək tərtibatının tabe olduğu xaç təsviri durursa, alban xaçdaşlarında xaç obrazı adətən dərinlik və hündürlük üzrə ümumi, çoxpilləli bədii traktavkadan əriyib bir neçə - 2, 4, 6 kiçik xaçlara xırdalanaraq bəzək tərtibatına qarışır. Azərbaycan xalqının mədəni irsinə aid olan Culfa xaçkarlarının Azərbaycan dövləti tərəfindən dağıdılması iddiası tamamilə məntiqsiz və əsassızdır. Qafqaz Albaniyasına aid bütün xristian memarlığı və dekorativ abidələri ermənilərin mədəniyyət abidəsi hesab edən Armen Haqnazaryan Azərbaycanı baykot edib YUNESKO-dan və Avropa Şurasından xaric etməyi tələb edir. Azərbaycana qarşı beynəlxalq miqyasda aparılan böhtan kompaniyası bu gün işğalçı Ermənistanın rəsmi dövlət siyasətinə çevrilmişdir. Bu ölkənin xarici işlər naziri Vardan Oskanyan YUNESKO-nun Baş Assambleyasının 2003-cü il oktyabrın 1-də Parisdə keçirilmiş 32-ci sessiyasında Culfa xaçkarları ilə bağlı böhtan xarakterli çıxışı bu fikri bir daha təsdiq edir.

Elmə çoxdan məlum olan belə bir tarixi həqiqəti bir daha xatırlatmaq istərdik ki, nəinki Naxçıvan Muxtar Respublikası, heç Qafqaz ərazisi də heç vaxt ermənilərin vətəni olmamışdır. Nüfuzlu şərqşünas alimlərin fikrincə, erməni etnosu eramızdan əvvəl II minilliyin sonu, I minilliyin I yarısında Fərat çayının yuxarı vadilərində formalaşmışdır. Naxçıvan Muxtar Respublikası ərazisində ermənilər XIX əsrin I yarısında Rusiya-İran və Rusiya-Türkiyə müharibələrindən sonra Rusiya hökuməti tərəfindən kütləvi surətdə məskunlaşdırılmışlar. 1828-ci il Türkmənçay müqaviləsinə əsasən İranın Marağa, Xoy, Səlmas, Urmiya və digər vilayətlərindən Naxçıvan və Qarabağa on minlərlə erməni köçürülmüşdür.

Rusiya tarixçisi N.İ.Şavrovun yazdıqlarından məlum olur ki, Naxçıvan və Qarabağ ərazisində imperiyanın təhlükəsizliyini təmin etmək məqsədilə 1828-ci ildən 1880-cı ilədək İrandan rəsmi olaraq 40 mindən artıq erməni köçürülüb məskunlaşdırılmışdır. Bu fakt Sankt-Peterburqda nəşr olunmuş, Qafqaz Təqviminin illik statistik məlumatlarında da öz əksini tapmışdır. Çarizmin müstəmləkəçilik siyasəti regionda demoqrafik balansa nəzərə çarpacaq dərəcədə təsir göstərmişdir.

İşğalçılıq müharibəsi yolu ilə xalqımızın torpaqlarını ələ keçirən erməni şovinistləri təcavüzkarlıq əməllərinə haqq qazandırmaq məqsədilə beynəlxalq konvensiyaları pozaraq tarix və mədəniyyət abidələrimizin xeyli hissəsini erməni abidələri elan edirlər.

Ötən əsrin 20-ci illərində Qərbi Azərbaycan torpaqlarında Ermənistan dövləti yaradıldıqdan sonra buranın yerli əhalisi olan azərbaycanlılar əvvəllər qeyri rəsmi, sonralar isə rəsmi surətdə hakimiyyət orqanlarının köməkliyi ilə açıq-aşkar zorakılıqla öz tarixi vətənlərindən deportasiya edilmişlər. Bu qədim Azərbaycan torpaqlarında xalqımızın mədəni irsinə aid memarlıq və milli sənətkarlıq abidələri-məscidlər, türbələr, orta əsrlərdən qalmış yüzlərlə dekorativ məzar daşları xaincəsinə erməni vandallar tərəfindən dağıdılmış, əksər abidələrdən əsər-əlamət belə qalmamışdır.

1990-cı illərin əvvəllərində Azərbaycan Respublikasına qarşı əsassız ərazi iddiaları irəli sürüb, beynəlxalq hüquq normalarını pozaraq hərbi təcavüz yolu ilə Birləşmiş Millətlər Təşkilatına üzv olan bütün dövlətlər tərəfindən ölkəmizin rəsmən tanınmış ərazisinin 20 faizindən çoxunu işğal etmiş Ermənistan hərbi birləşmələri milli mədəniyyət abidələrimizə qəddarcasına divan tutmuşlar. Şuşa şəhər tarixi memarlıq qoruğunun ərazisində qoruq şəhərin memarlıq xüsusiyyətlərini əks etdirən milli üslubda inşa edilmiş əksər yaşayış evlərini, erməni vandallar tam və ya qismən dağıtmışlar. İşğal zonalarında maddi mədəniyyət yadigarlarımızın dağıdılması prosesi hələ də davam edir. İşğal zonalarında dövlət siyahısında olan yüzlərlə abidə qalmışdır. İşğalçılar geniş miqyaslı, qeyri peşəkar arxeoloji qazıntı işləri aparır, kurqanları dağıdır, qarət etdikləri tapıntıları Ermənistana daşıyırlar.

Azərbaycan xalqının mədəni irsi bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsi olduğundan Azərbaycan Respublikasının ərazisində xalqımızın çoxəsrlik tarixi keçmişindən yadigar qalmış tarix və mədəniyyət abidələrinin mühafizəsi beynəlxalq əhəmiyyət kəsb edən bir problemdir.

Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına ziddir.

1992-1993-cü illərdə Dağlıq Qarabağı, Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarını işğal etmiş erməni təcavüzkarları indi də, görünür, Naxçıvanı hədəfə alıblar. Beynəlxalq hüquq normalarına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymayan təcavüzkarlar xristian həmrəyliyi amilinə, şimal qonşusunun hərbi strateji müttəfiqi olmasına, BMT Təhlükəsizlik Şurası dövlətlərinin Qarabağ probleminə münasibətdə qeyri ciddi və ikili standart siyasəti yeritməsinə arxalanır və azğınlaşırlar. Dağlıq Qarabağın və Naxçıvanın Azərbaycan Respublikasının tərkibində olmasını "tarixi ədalətsizlik" adlandırırlar. Lakin əslində böyük dövlətlərin siyasi oyunlarında həmişə şərəfsiz məqsədlərlə istifadə olunmuş erməni şovinistlərinin törətdikləri əməllərin, erməni xalqını qonşu xalqlarla qanlı toqquşmalara təhrik etmiş fitnəkarlıqların tarixi ədalətsizliklər tarixidir.

Zənnimcə, əgər bugünkü məsul tarixi məqamda meydanda tək qalmamaq naminə şimal qonşumuzu, Rusiyanı hərbi müttəfiqimizə çevirə bilsək, bu erməni hərbi təcavüzünə qarşı mübarizəmizdə ən güclü siyasi gediş olar. Ölkəmizin iqtisadi və hərbi potensialı güclənər, Ermənistandakı işğalçı rejim süqut edər, xalqımızın haqq işi zəfər çalar.

*Vaqif ƏSƏDOV*